

**<u>Prof.Dr. Osman Emin</u>**
**Müqəddəs Kiril və Mefodi adına Skopye Universiteti,**
**Şimali Makedoniya Respublikası**

---

Professor Dr. Osman Emin - Şimali Makedoniya Respublikasının Müqəddəs Kiril və Mefodi adına Skopye Universitetinin Filologiya fakültəsinin Türk dili və ədəbiyyatı kafedrasının müdiri – Bakı Slavyan Universiteti Balkanşünaslıq kafedrasının dəvəti ilə 05 may – 30 may 2025-ci il tarixlərində elmi və pedoqoji fəaliyyət göstərmişdir. Qonaq professor tərəfindən müxtəlif ixtisas və kurslar üzrə aşağıdakı fənlərdən ümumilikdə 21 mühazirə keçirilmişdir (hər dərs 80 dəqiqə olmaqla):

- Balkan mədəniyyəti və incəsənəti
- Balkan ədəbiyyatının inkişaf tarixi
- Balkan Türk ədəbiyyatı
- Balkan Türklüyünün Türk dünyası ilə ədəbi-mədəni əlaqələri
- Balkan Türk ədəbiyyatında Azərbaycan-Türk dünyasının yeri və önəmi
  Balkanşünaslıq kafedrasının müdiri f.e.d., dos. Nurlana Mustafayeva ilə birlikdə "Balkan Türk Qısa müddətli fəaliyyətinə baxmayaraq, Prof. Dr. Osman Eminin Bakı Slavyan Universiteti Balkanşünaslıq kafedrasındakı elmi və pedaqoji fəaliyyəti faydalı olmuş, Balkanşünaslıq sahəsində yüksək məhsuldarlıqla həyata keçirilmiş, Balkanşünaslıq sahəsində əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli addım olmuşdur. Eyni zamanda qonaq professorun qısa müddətli fəaliyyəti Azərbaycanda ilk dəfə (13 iyun 2025) və ikincisi (26 sentyabr 2025) məhz Bakı Slavyan Universitetində keçiriləcək və ənənə halını alan Beynəlxalq Balkanşünaslıq Konfransının təşkili, elmi əməkdaşlıqların qurulması baxımından da önəmli nəticələr vermişdir.